Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# GENDER BƏRABƏRLİYİ maarifləndirici kitabça

2023



© Avropa İttifaqı 2023.

Bu nəşr Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və NIRAS tərəfindən həyata keçirilən "AVROPA İTTIFAQI GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHAT ÜZRƏ YARDIM XİDMƏTİ" layihəsi çərçivəsində hazırlanıb. Onun məzmunu yalnız NIRAS-ın məsuliyyətidir və Avropa İttifaqının fikirlərini əks etdirmir.

# GENDER BƏRABƏRLİYİ maarifləndirici kitabça

2023

Bu kitabça Azərbaycan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tərəfdaşlığı ilə və Aİ /DG NEAR-ın maliyyə dəstəyi ilə NIRAS İsveç AB tərəfindən həyata keçirilən "Avropa İttifaqı Gender Bərabərliyi Naminə: İslahat üzrə Yardım Xidməti" layihəsi çərçivəsində gender məsləhətçisi Günel Mehdiyeva tərəfindən hazırlanmışdır.

# MÜNDƏRİCAT


**GİRİŞ** **1**

Gender bərabərliyi nədir və nə üçün vacibdir 1

**BÖLMƏ 1** **2**

Gender anlayışları 2

Ailə münasibətlərində gender bərabərliyi 13

**BÖLMƏ 2** **16**

Selektiv abortlar və ya gender əsaslı cins seçimi 16

Gender əsaslı cins seçiminin fəsadları 18

Uşaq nikahları 21

**BÖLMƏ 3** **21**

Uşaq evliliklərinin fəsadları 24

Qanun və cəza 26

Gender əsaslı zorakılıq/Məişət zorakılığı 27

**BÖLMƏ 4** **27**

- Zorakılığın növləri 30
- Gender - Əsaslı Zorakılıqla (GƏZ) bağlı risk faktorları 38
- Gender -əsaslı zorakılıqla bağlı miflər 42
- Zorakılığın normallaşdırılması anlayışı 46
- “Zorakılığın həyat dövrü” yanaşması 47
- Zorakılığın fəsadları: Zorakılığın qadınların sağlamlığına vurduğu zərər 48
- Uşaqlara qarşı zorakılıq və fəsadları 51
- Gender bərabərliyi çarxı 53
- Qanun və Cəza 54
- Zorakılıq baş verdikdə dərhal müraciət edəcəyiniz qaynar xətlər 57
- Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım göstərilməsi üçün akkreditasiya olunmuş qeyri-dövlət mərkəzləri haqqında məlumat 58
- Ədəbiyyat siyahısı 60

# GİRİŞ

## Gender bərabərliyi nədir və nə üçün vacibdir

Qadınlar və qızlar dünya əhalisinin yarısını təşkil edir, bu isə həm də o deməkdir ki, onlar mövcud potensialın yarısını təşkil edir. Lakin hələ də gender bərabərsizliyi hər yerdə davam edir və sosial tərəqqidə durğunluq yaradır. Başqa sözlə desək gender bərabərliyi davamlı inkişafa nail olmaq üçün vacib şərtlərdən biridir. Sübut olunmuşdur ki, qadınların səlahiyyətlərinin artırılması məhsuldarlığa və iqtisadi artıma əhəmiyyətli dərəcədə təsir etir. Lakin, unutmayaq ki, ən başlıca səbəb gender bərabərliyinin fundamental insan hüququ olmasıdır.

Azərbaycan Respublikasının Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunu da gender bərabərliyini "qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyəti", bərabər imkanları isə "insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradılan bərabər şərait və təminatlar" olaraq müəyyən edir.

Gender bərabərliyi anlayışı növbəti paraqraflarda daha geniş izah olunacaq. İlk növbədə gender nədir, genderlə cins anlayışları arasındakı fərq və genderi daha yaxşı anlamağımız üçün digər əlaqəli anlayışların tərifi təqdim olunur.

# BÖLMƏ 1

## Gender anlayışları

**Cins** – bioloji faktdır; bioloji cəhətdən fərqlənən iki uşaq növü doğula bilər - qız və ya oğlan. Gender isə həmin andan etibarən "qız olmaq" və "oğlan olmaq" anlayışlarını və təcrübələrini formalaşdıran hər şey kimi başa düşülə bilər.[2] Yəni doğulduğumuz andan etibarən sosial və mədəni kontekstlərimiz bizə "qadın" və ya "kişi" olmağın mənalarını, məhdudiyyətlərini və imkanlarını təklif edir. Ümumdünya Səhiyyə Təşkilatına görə 'Cins' kişi və qadınları müəyyən edən bioloji və fizioloji xüsusiyyətlərə aiddir. Məsələn:

- Qadınlarda menstruasiya olur, kişilərdə isə olmur
- Qadınlar süd vermə qabiliyyətinə malik olduğu halda, bu funksiya kişilərdə olmur
- Kişilərin əzələləri, adətən, qadınlarla müqayisədə daha iri olur

Təqdim edilən misallarda bioloji və fizioloji fərqlər göstərilir. Lakin, elmi tədqiqatlar göstərir ki, kişilərlə qadınlar arasındakı bioloji oxşarlıq fərqlərdən daha çoxdur və tədqiqatçılar hətta belə hesab edirlər ki, kişilər və qadınlar arasındakı yeganə aydın və əhəmiyyətli fərq onların nəsil artırmasındakı rolu ilə bağlıdır.[3]

---

[2] Gender Matters. A manual on addressing gender-based violence affecting young people. Council of Europe. 2007.
[3] Dövlət qulluğunda gender bərabərliyi üzrə kurrikulum. 2021. AQUPDK. GİZ. DİM. BDU

**"Gender"** isə cəmiyyətin kişi və qadınlar üçün uyğun hesab etdiyi sosial cəhətdən qurulmuş rollara, davranışlara, fəaliyyətlərə və atributlara aiddir. Qısaca, gender anlayışı kişi və qadınlardan gözlənilən keyfiyyətlər və davranışlar toplusunu təsvir etmək üçün istifadə olunur.

Azərbaycan Respublikasının Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunu da gender anlayışını "ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti" kimi müəyyən edir.

**Gender** bioloji deyil; "yəni qızlar və oğlanlar necə görünməli, geyinməli, danışmalı, davranmalı, düşünməli və ya reaksiya verməli olduqlarını bilə-bilə doğulmurlar. Əksinə, gender sosiallaşma prosesi və müvafiq cəmiyyətin mədəniyyəti vasitəsilə öyrənilir. Bu o deməkdir ki, gender mənsubluğunu həyat boyu insanın valideynləri, müəllimləri, həmyaşıdları, media, onların mədəniyyəti və cəmiyyəti gücləndirir. Məsələn, bir çox mədəniyyətlərdə oğlanlar uşaqlara verilən oyuncaqlar (oğlanlar üçün silahlar, qızlar üçün gəlinciklər və ya geyimdəki rəng ayrımı – oğlanlar üçün mavi, qızlar üçün çəhrayı rəng geyimlər), tətbiq olunan intizam növü, məşğul olduqları iş və ya karyera vasitəsilə kişi xüsusiyyətlərini nümayiş etdirməsi hesab edilən hərəkətlərə təşviq edilir (qadınlar da əksinə - qadınlıq xüsusiyyətlərini nümayiş etdirən hərəkətlərə təşviq edilir). Insanlar başqaları və özləri tərəfindən kişi və ya qadın kimi qəbul edilmək üçün necə davranmalı olduqlarını öyrənirlər. Beləliklə bir başqa təsəvvür də - "kişi işi (məşğuliyyəti)", "qadın işi" yaranmış olur. Halbuki bu təsəvvürlərin nisbi olması artıq çoxdan sübüt edilib. Beləliklə qadın və kişilərin davranışlarını, peşə və fəaliyyət növlərini müəyyən edən bioloji cins deyil, sosial-mədəni qaydalardır.

Cəmiyyətdə kişi və ya qadın olmaq anatomik xüsusiyyətlərə sahib olmaq deyil, həm də cəmiyyət tərəfindən müəyyən edilmiş bu və ya digər gender rolunu icra etmək deməkdir.[4]

**Gender rolları** dedikdə cəmiyyətin kişilər, qadınlar, oğlanlar və qızlar üçün uyğun hesab etdiyi davranışlar, vəzifələr və məsuliyyətlər nəzərdə tutulur. Nəticədə cəmiyyətdə qadın və kişilərin sosial rolları əhəmiyyət kəsb etmiş və onların cəmiyyətdəki rolunu müəyyən etmiş olur. Bəzən hətta gender rolları normalaşdırılmış və gündəlik həyatda əksinə daha da gücləndirilmiş olur.

**Maskulinlik** - müəyyən mədəniyyətlərdə/cəmiyyətlərdə və təşkilati yerlərdə mövcud olan, adətən kişilərlə əlaqəli olan və beləliklə, feminin olmayan kimi müəyyən edilən davranışlar, dil və təcrübələrdir. Maskulinlik – cəmiyyətin kişidən gözlənilən davranışıdır. Uşaqlıqdan oğlanlar kişi olmağın nə demək olduğuna dair sözlər eşidirlər. “Əsl kişi” necə olmalıdır deyə onlarda təsəvvür yaradılır. Əksər oğlanlar da müəyyən bir davranış öyrənirlər ki, bu daha çox kişiyə xas davranış hesab olunan aqressiv davranış sərgiləməkdir. Belə ki, bir çox gənc oğlanlar üçün qəbul edilmiş kişilik standartlarına uyğun gəlməmək, həmin şəkildə davranmamaq, kişilik statusunu itirmək deməkdir ki, bu da onların sağlamlığına və özünə hörmətinə mənfi təsir edə bilər. Nəticədə gənc kişilər öz kişiliklərini nümayiş etdirmək üçün şəxsiyyətlərinin digər tərəflərini inkar etməli və ya gizlətməli olurlar, çünki inanırlar ki, kişilər “sərt davranmaqla” status və hörmət qazanırlar.

**Feminiinlik** - qadın cinsinə məxsus xüsusiyyətlər və ya hər hansı cəmiyyətdə qadından gözlənilən xarakterik davranış formalarıdır. Ənənəvi olaraq qadına passivlik, mülayimlik,

[4] Eyni mənbə.

özünü analığa həsr etmək, qayğıkeşlik, emosionallıq və s. kimi keyfiyyətlər aid olunur. Femininlik anadangəlmə olmaqdan çox, uşaqlıq dövründə formalaşır - qız uşağının kifayət qədər qadın cinsinə məxsus keyfiyyətləri yoxdursa, tənqidə məruz qalır. Femininlik maskulinliyin «bərabər, lakin fərqli» əksidir. Bu da düzgün deyil, çünki maskulin xüsusiyyətlər (dözümlülük, cəsarətlilik və s.), qadınlar da daxil olmaqla, bütün insanlar üçün arzuolunandır. Femininliyin emosionallıq və intuisiya kimi cəhətləri zəiflik yox, xüsusi bir qüvvədir. Bu cəhətlər daha mükəmməl cəmiyyətin yaradılması üçün lazım ola bilər və kişilər də bu cəhətləri özlərində inkişaf etdirə bilərlər.

**Gender əsaslı ayrı-seçkilik** (gender diskriminasiyası), ümumiyyətlə, insanın insan hüquqlarından istifadə etməsinə mane olan sosial cəhətdən qurulmuş gender rolları və normaları əsasında həyata keçirilən hər hansı fərq, istisna və ya məhdudiyyət kimi başa düşülə bilər. Beynəlxalq hüquq qadınlara qarşı gender əsaslı ayrı-seçkiliyi “qadınların ailə vəziyyətindən, qadın və kişilərin bərabərliyi, insan hüquqlar və siyasi, iqtisadi, sosial, mədəni, mülki və ya hər hansı digər sahədə əsas azadlıqlarının tanınması və istifadəsinin zəifləməsinə və ləğv edilməsinə təsir edən və ya bu məqsədi daşıyan cinsə əsaslanan hər hansı fərq, istisna və ya məhdudiyyət” kimi müəyyən edir (CEDAW[5]-ın 1-ci maddəsi).

Bu cür ayrı-seçkilik ya birbaşa (qanun, siyasət və ya praktikada qadınlara qarşı açıq ayrı-seçkilik törətdikdə) və ya dolayı ola bilər (qanunlar, siyasətlər və ya təcrübələr gender baxımından neytral görünsə də, qadınlara zərərli

[5] The Convention on the Elimination of All Forms of Discrimination Against Women (CEDAW) – Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya. BMT Baş Assambleyası tərəfindən 1979-cu ildə qəbul olunmuş, 3 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir

təsir göstərdikdə) (CEDAW GR[6] 25).

**Gender stereotipləri**[7] – “Stereotip” qərəz və ayrı-seçkiliyə aparıb çıxaran, insanlar və ya fikirlər barəsində həddən artıq sadələşdirilmiş, ümumiləşdirilmiş və əksər hallarda qeyri-şüurlu qərəzli yanaşmadır. Qadınlar və ya kişilərə cinslərinə görə necə davranmalı olduqları barəsində rollar şamil edilirsə, bu “gender stereotipləşdirilməsi” adlandırılır. Stereotipləşmiş yanaşmalar çox vaxt qadın və kişiləri məhdudlaşdıraraq onların həyatdakı seçimləri və imkanlarına maneə törədir. Belə ki, gender normaları ailədə uşaqların tərbiyə prosesində (valideyn və ya qohum qismində), təhsil sistemində (uşaq təşkilatlarında tərbiyəçi və ya müəllim qismində), bütünlükdə mədəniyyətdə (kitablar və ya KİV vasitəsilə) uşaqların şüuruna yeridilir, bəzi əxlaq qaydaları formalaşdırılır və artıq qeyd olunduğu kimi “əsl kişi” və “əsl qadın” necə olmalıdır təsəvvürü yaradır.

*Qadınlarla bağlı stereotiplər* - nisbətən passiv, qeyri-müstəqil fikirli, emosional və tez ağlayandırlar. Digərlərinə qulluq etməkdən, uşaqların qayğısına qalmaqdan, bir sözlə, fədakarlıqdan zövq almalıdırlar. Daha çox xarici görünüşləri önəm kəsb etdiyinə görə onunla hədsiz məşğuldurlar, biznes məsələləri, dünyada gedən proseslərlə o qədər də maraqlanmır, texnikadan isə heç bir məlumatları yoxdur.

*Kişilərlə bağlı stereotiplər* - hədsiz inadkar, müstəqil və öz emosiyalarına nəzarət etməyi bacarırlar. Öz işi ilə çox ciddi məşğul olan, ambisiyalı, işinə vurğun, elmdən, idmandan, biznesdən və dünyada baş verən hadisələrdən, texnikadan kifayət qədər məlumatlıdırlar.

---

[6] CEDAW General Recommendations - CEDAW Komitəsinin Tövsiyələri
[7] Dövlət qulluğunda gender bərabərliyi üzrə kurrikulum. 2021. AQUPDK. GİZ. DİM. BDU

Beləliklə, cəmiyyət öz inanclarına uyğun olaraq kişi və qadınlarla fərqli rəftar edir. Gender stereotipləri gender bərabərliyinə nail olmaqda əngəl yaradır və gender ayrı-seçkiliyinə gətirir. Məsələn, məktəbdə müəllimlərin oğlanlara aktivliyinə, aqressivliyinə, özünə əminliyə görə müsbət qiymət verməsi, qızları daha çox zərifliyinə, passivliyinə, sözə qulaq asmalarına, rəhmli olmalarına görə dəyərləndirməsi gender stereotiplərini məktəb illərində formalaşdırmış olur – bir çox qızları müstəqilliyinə, rəqabət marağına, ictimai həyatda fəallığına görə rəğbətləndirmirlər.

Gender stereotipləri qadınları iqtisadi və sosial həyatdan kənarlaşdırır. Onlar ödənişsiz qayğı işlərinin - ev təsərrüfatı və ailə üzvlərinə qulluq və az ödənişli və ya qeyri-rəsmi işlərin qeyri-mütənasib bölgüsünün təsirinə məruz qalırlar. Stereotip gözləntilərinə uyğun gəlməyən qızlar tənqidə, qınağa və hətta zorakılığa məruz qala bilər. Qeyd olunduğu kimi, ənənəvi gender stereotipləri qızlarla bərabər oğlanlara da təsir edir. Ailələrin özünəməxsus xüsusiyyətləri, kişi işsizliyi və qadının cəmiyyətdə genişlənən rolu oğlanlardan gözlənilən mübarizə aparmaq, qalib gəlmək kimi xüsusiyyətlərlə uyğun gəlmir. Kişi haqqında stereotiplərə uyğun olmayan gənc aqressiyaya, təcridə və cinsi ayrı-seçkiliyə məruz qala bilər.[8]

**Gender bərabərliyi – *iştirak və qərarqəbuletmə də daxil olmaqla, cinsindən asılı olmayaraq resurs və imkanlardan istifadə etməkdə bərabərlik anlamına gəlir.***

Gender bərabərliyi eyni zamanda hüquqlara və ya xidmətlərə çıxışda şəxsin cinsinə görə heç bir ayrı-seçkiliyə

[8] Dövlət qulluğunda gender bərabərliyi üzrə kurrikulum. 2021. AQUPDK. GİZ. DİM. BDU.

yol verilməməsi, həmçinin, cinsindən asılı olmayaraq fərqli davranışların, istəklərin və ehtiyacların bərabər qiymətləndirilməsi deməkdir. Gender bərabərliyi kişi və qadınlar, qız və oğlanlar arasında məhdudiyyətlər olmadan onların şəxsi qabiliyyətlərini inkişaf etdirmək və seçim etmək azadlığıdır. Bu, kişi və qadınların eyni olması demək deyildir. Qadın və kişilərin fərqli ehtiyacları var və onların bu ehtiyaclarına uyğun olaraq ədalətliliyin təmin edilməsi nəzərdə tutur. Yəni, onların fərqli ehtiyacları olsa da hüquqlar, faydalar, öhdəliklər və bərabər imkanlar təmin olunmalıdır.

Gender bərabərliyinin özəyində qadın, həm də kişilər üçün bərabər hüquqları, imkanları və çıxışları təmin etmək dayanır. Çünki, gender bərabərsizliyi ilə əlaqədar olaraq, qadınlar və qızlar hal-hazırda kişilər və oğlanların təmin edildiyi hüquq, imkan və çıxışlardan faydalana bilmirlər. Gender qərəzliyi isə sosial quruluşu sarsıdır. İnsan potensialının böyük itkisi baş verir. Əhalinin yarısına tam şəkildə yaşamaq, yəni öz potensiallarını həyata keçirməyə imkan verilmir. **Halbuki, qadınlar üçün siyasi, iqtisadi və sosial bərabərlik bütün dünyaya fayda vermək deməkdir. Yəni, gender bərabərliyi sadəcə qadın və qızların maraqlarına cavab verən məsələ deyil, bütün cəmiyyətin faydalanacağı bir hədəfdir.** Gender bərabərliyi sabitlik, inkişaf və rifahın önəmli daxili komponentidir. Başqa sözlə desək, gender bərabərliyi dinc, firavan və davamlı dünya üçün zəruri təməldir. Ona görə də həm qadın, həm də kişilərin ailədə, iş yerində ümumilikdə, cəmiyyətdə ehtiyaclarının müəyyənləşdirilməsi və qarşılanması vacibdir.

Biz yuxarıda qadın və kişilərin fərqli ehtiyaclarının olduğunu qeyd etdik. Gender bərabərliyi qadın və kişilər arasında olan fərqlərin və sosial həyatda müxtəlif rolların qiymətləndirilməsi üzərində qurulur. Bərabərlik prinsipi də fərqlənmək hüququnu nəzərdə tutur. Fərqli lakin bərabər.

**Ayrı-seçkilik** - insan hüquqlarının pozulmasının və istismarının formalarından biridir. Ayrı-seçkiliyin əsasında qərəzli fikirlər dayanır və insanlara potensialını sərbəst həyata keçirməyə mane olur. ***Cinsi ayrı-seçkilik*** bir şəxsin ya qadın, ya da kişi olmasına görə məruz qaldığı yəni cinsinə görə məruz qaldığı ayrı seçkilikdir. Cinsi ayrı seçkiliyə qızların erkən yaşda ərə verilməsini, qadın sünnətini, gender-əsaslı cinsi ayrıseçkiliyi (oğlan uşaqlarına qızlara nisbətən daha çox üstünlük və dəyər verilməsi) və s misal göstərmək olar.

Ölkəmizdə ən geniş yayılmış cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarından biri selektiv abortlardır. Qadının hamiləliyini süni şəkildə dayandırmağa məcbur edilməsi, bəzən də qadının yalnız qız uşaqları dünyaya gətirdiyi üçün tərk edilməsi buna misaldır.

Qeyd olunduğu kimi qız uşaqlarının erkən evliliyə məcbur edilməsi halları onlara qarşı cinsi mənsubiyyətə görə ayrı-seçkilik halı kimi qiymətləndirilir. Çünki, bu qadınların və qızların cəmiyyətdə öz hüquqlarını reallaşdırmasına ciddi əngəl yaradır və onları sosial cəhətdən həssas qrupa çevirir.

İş yerlərində cinsi ayrı-seçkilik və eyni əməyə görə qeyri-bərabər ödəniş cinsi ayrı seçkiliyə göstərə biləcəyimiz digər misallardır. İşəgötürən bir işçiyə cinsindən asılı olaraq fərqli münasibət göstərdiyi zaman bu ayrı-seçkilik halı baş verir. Bir çox hallarda, işəgötürənin qeyri-bərabər rəftarının əsasında gender stereotipləri dayanır. Məsələn, işəgötürən bir qadını işə götürmür və deyir ki, qadın kişi qədər güclü deyil və ya qadınlar çox emosionaldırlar və bu səbəbdən müəyyən bir vəzifəni yerinə yetirə bilməz.

Qadınların kişilərlə müqayisədə daha aşağı səviyyədə əmək bazarında iştirakı; işsiz əhalinin sayında qadınların

çoxluq təşkil etməsi; gender əsaslı stereotiplərdən irəli gələn ailədəki "qadın işi" ilə bərabər, peşə və məşğulluq sahələrində də mövcud olan "kişi və ya qadın peşələri" digər nümunələrdir.

## Cinsi qısnama

Ayrıseçkiliyin və zorakılığın bir forması, eyni zamanda insan hüquqlarının pozuntusudur.

Cinsi qısnama "qorxuducu, ədavətli, ləyaqəti alçaldan, alçaldıcı və ya təhqiredici mühit yaratmaqla insan ləyaqətini təhqir etmək məqsədi və ya təsiri ilə cinsi xarakterli arzuolunmaz sözlü, sözsüz və ya fiziki davranışın hər hansı formasıdır."[9] Qısaca desək, cinsi qısnama cinsi xaraketerli arzuolunmayan davranışdır.

Cinsi qısnama qeyri-bərabər güc dinamikasına, gender stereotiplərinə və qadınlar və kişilər arasında (o cümlədən iş dünyasında) sistemli bərabərsizliklərə söykənir. Cinsi qısnama verbal (sözlü), qeyri-verbal (sözsüz), psixoloji və ya fiziki formada ola bilər və yazılı və elektron ünsiyyət, kiberbullinq və kibertəqibi ehtiva edə bilər.

***Sözlü cinsi qısnama*** [10]nümunələrinə aşağıdakılar aid edilə bilər:
bir insanın bədəni haqqında cinsi şərhlər etmək, cinsi şərhlər və ya eyhamlar etmək, cinsi fantaziyaları, nələrdən xoşlandığını və ya cinsi həyat tarixçəsi haqqında soruşmaq, kiminsə sosial və ya cinsi həyatı haqqında şəxsi suallar vermək, şəxsin geyimi, görünüşü və ya anatomiyası haqqında cinsi şərhlər etmək, dəfələrlə maraqlanmayan

[9] https://www.coe.int/en/web/gender-matters/harassment-and-sexual-harassment
[10] https://www.coe.int/en/web/gender-matters/harassment-and-sexual-harassment

bir insanla görüşməyə çalışmaq, bir insanın cinsi həyatı və ya xoşladıqları məqamlar haqqında yalan danışmaq və ya şayiələr yaymaq.

***Sözsüz cinsi qısnama***[11] nümunələrinə aşağıdakılar daxildir: bir insana yuxarı və aşağı baxmaq ("gözləri ilə yuxarıdan aşağı süzmək"), kimisə izləmək və ya təqib etmək, seksual xarakter daşıyan vizual görüntülərdən istifadə etmək, əllərlə və ya bədən hərəkətləri ilə cinsi jestlər etmək, göz vurmaq, öpüş göndərmək, ya da dodaqlarını yalamaq kimi mimikalardan istifadə etmək.

***Fiziki qısnama*** hallarına aşağıdakılar daxildir:
kiməsə boynuna və ya çiyinlərinə masaj etmək, başqasının paltarına, saçına və ya bədəninə toxunmaq, qucaqlamaq, öpmək, sığallamaq, toxunmaq və ya başqasına qarşı cinsi surətdə sürtünmək.

Qısnamada əsas anlayış ondan ibarətdir ki, hər hansı bir təklif arzuolunmazdır. Bir şəxs öz bədəni haqqında seksist[12] qeydi və ya şərhi xoş qarşılaya və qəbul edə bilər, lakin bu, çox güman ki, konkret vəziyyətdən və şəraitdən asılıdır.

[11] Eyni mənbə.
[12] Seksizm bəzi insanların, əksər hallarda qadınların cinsi mənsubi - yyətinə görə aşağı səviyyəli olduqları fikrinə əsaslanan hər hansı ifadə formasıdır (hərəkət, söz, təsvir, jest). Tarixən fərdi hərəkətlərlə yanaşı, bizim mədəni normalarımız da (istər dilin, istər sənətin, istər tarixin, istər hüququn, istərsə də siyasi təsisatların normaları) kişi hökmranlığını və müvafiq olaraq seksizmi əks etdirən ideya və təcrübələri özündə daşımışdır və hələ də daşıyır. Bəzən seksizm dolayı yolla, məsələn, yumorla ifadə edilir, amma bunlar heç vaxt "sadəcə zarafat" olmur. Onlar əslində istehzadır və çox zaman məqsədi insanla birlikdə gülmək deyil, onun özünə gülməkdir. Bu alçaldıcı yumor sosial hökmranlıq və stereotip münasibətlərini qorumaq və nəticə etibarilə insanları susdurmaq üçün silaha çevrilə bilər. İfadə azadlığı bir qrup insanı təhqir etmək, dəyərdən salmaq və ya alçaltmaq üçün bəhanə və ya vasitə kimi istifadə edilə bilməz. "Seksizm: onu gör, ona ad qoy, onu dayandır". Avropa Şurası 2021.

Bununla belə, yadda saxlamaq vacibdir ki, kimsə davranışı qəbul etsə və ya xoş qarşılasa belə, bu, yenə də alçaldıcı ola bilər. Bundan əlavə, bu cür qəbul tamamilə könüllü olmaya bilər: bu, çox zaman kənar aləmin görünməz təzyiqinin nəticəsi ola bilər.[13]

## İş yerində cinsi qısnama

Cinsi qısnama" qadın və kişilərin ləyaqətinə toxunan, arzuolunmaz, qəbuledilməz, yersiz və şəxs üçün təhqiredici hesab edilən, qorxuducu, ədavətli, qeyri-sabit və ya təhqiredici iş mühiti yaradan hər hansı cinsi xarakterli davranış kimi müəyyən edilir.[14]

Iş yerində cinsi qısnama iki formada baş verir:

1. Quid Pro Quo (Hər şey qarşılıqlıdır)

İşçi ilə səlahiyyətli bir şəxs (məsələn, işlə bağlı imtiyazlar vermək və ya verməkdən imtina etmək imkanına malik müdir) arasında baş verir. İşə qəbul, əmək haqqı artımı, yüksəliş və ya hətta işin davam etdirilməsi kimi bir iş mükafatı müqabilində səlahiyyətli şəxsin seksual xarakterli istəklərinin yerinə yetirilməsi və ya səlahiyyətli şəxsin buna cəhd etməsi/təsir göstərməsi.

2. Ədavətli iş mühiti

İşçinin cinsinə görə ona qarşı yönəldilmiş xoşagəlməz cinsi davranış və ya davranış nəticəsində yaradılmış, alçaldıcı,

[13] https://www.coe.int/en/web/gender-matters/harassment-and-sexual-harassment
[14] https://www.ilo.org/wcmsp5/groups/public/---asia/---ro-bangkok/---ilo-hanoi/documents/publication/wcms_371182.pdf

təhqiredici, ədavətli/və ya qorxuducu xarakter daşıyan və həmin işçinin öz işini yerinə yetirmək qabiliyyətinə mənfi təsir göstərən iş mühitidir.

Məsələn, qurbanın bu davranışların arzuolunmaz olduğunu bildirməsinə baxmayaraq, arzuolunmaz seksual atmacalar və ya zarafatların davam etdirilməsi ədavətli iş mühiti anlayışına daxildir.

## Ailə münasibətlərində gender bərabərliyi

Azərbaycanda ailə institutuna böyük dəyər verilir. Bu baxımdan cins əsaslı selektiv abortlar, uşaq evlilikləri, məişət zorakılığı, həmçinin gender qərəzli və stereotipli münasibətlər kimi gender bərabərliyini təhlükə altına alacaq düşüncə, yanaşma və hərəkətlərin aradan qalxması və cəmiyyət olaraq gender əsaslı zorakılığa sıfır dözümlülük nəzərə almalı olduğumuz məsələlərdir.

Bərabərlik ailədən başlayır. Ailə bir komandadır. Hər bir insan öz ailəsinin strukturunda və funksiyasında özünəməxsus rol oynayır və hər bir fərdin güclü tərəfləri və şəxsiyyəti ailənin rifahının bir hissəsinə töhfə verir.[15] Bu baxımdan bütün tərəflərin qayğı və məişət işlərinin bölüşdürülməsi və ailədəki stereotip gender rollarına haqqında söhbət etməsi və bərabərliyə maneə olacaq məsələlərə qarşı addım atması zəruridir.

Azərbaycan Respublikasının Konstitusiyasında da hər bir vətəndaşın nikah hüququ təsbit edilib. Konstitusiyaya əsasən ailə və uşaqlar dövlətin himayəsi altındadırlar.

[15] https://menengage.unfpa.org/en/news/family-teamwork-equality-starts-home

Konstitusiyanın ailə hüquqlarının müdafiəsinə yönəlmiş əsas norması hamının qanun və məhkəmə qarşısında bərabərliyini, kişi ilə qadının eyni hüquq və azadlıqlara malik olduğunu bəyan edən "bərabərlik hüququ" adlanan normasıdır. Nikah münasibətləri zamanı iradə azadlığını, ərlə arvadın hüquq bərabərliyini tənzimləyən müddəalar da diqqətəlayiqdir. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququnu müəyyən edən həmin maddəyə əsasən nikah könüllü razılıq əsasında bağlanılır. Ailə Məcəlləsinə əsasən Azərbaycan Respublikasında nikah yaşı kişilər və qadınlar üçün 18 yaş müəyyən edilib.[16]

Eyni zamanda Konstitusiyada təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər. Analıq, atalıq, uşaqların tərbiyə və təhsili, eləcə də ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsiplərinə uyğun olaraq birgə həll edilir. Ər (arvad) özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə azaddır. Ər və arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım, hörmət hissi əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar.[17]

Belə ki, ev işləri, böyüklərə və uşaqlara və ya xəstə ailə üzvlərinə qulluq kimi qayğı işləri qadınların təhsil, məşğulluq və asudə vaxtlarını keçirmək kimi bərabər imkanlardan məhrum olurlar.[18]

---

[16] Dövlət qulluğunda gender bərabərliyi üzrə kurrikulum. 2021. AQUPDK. GİZ. DİM. BDU.
[17] Eyni mənbə.
[18] https://www.unwomen.org/en/news-stories/feature-story/2023/05/gender-equality-starts-at-home-five-ways-to-drive-change-within-the-family

Ənənəvi kişilik anlayışları çox vaxt kişiləri qayğı və ev işləri ilə məşğul olmaqdan, eləcə də emosiyalarını açıq, sağlam şəkildə ifadə etməkdən çəkindirir. Bərabərliyi təşviq etmək və zorakılığın qarşısını almaq üçün əsas olan belə düşüncə tərzinə qarşı çıxmaq evin daxilindən başlayır.[19]

Halbuki qayğı işlərinə cəlb olunmuş atalığın faydaları aydındır - atalar oğul və qızlarının həyatına daha çox cəlb olunduqda, onların uşaqları daha yaxşı fiziki və psixi sağlamlıq, daha yüksək akademik nailiyyətlər, daha yaxşı idrak və sosial bacarıqlar, daha yüksək özünə hörmət, daha az davranış problemi və artan stresə qarşı daha dözümlü olurlar.[20]

Kişilər üçün atalıq anlayışını genişləndirmək kişilər üçün ailənin yeganə maliyyə təminatçısı və qoruyucusu olmaqdan əlavə başqaları ilə daha çox emosional dürüstlük və empatiya əsasında münasibətlər yaratmaq üçün imkan verir. Tədqiqatlar göstərir ki, uşaqları ilə yaxın, zorakılıqdan kənar ünsiyyət quran kişilər daha uzun yaşayır, daha az əqli və fiziki problem yaşayırlar, narkotiklərdən sui-istifadəyə daha az meyllidirlər, işdə daha məhsuldardırlar və uşaqları ilə bu cür əlaqə qura bilməyən atalara nisbətən daha xoşbəxt olduqlarını bildirirlər.[21]

Kişilər qayğı göstərən rolları üzərinə götürdükləri zaman bioloji və psixoloji olaraq da dəyişirlər. Bir sözlə, atalar övladlarının inkişafına, uşaqlar isə atalarının inkişafına təsir göstərir. Qayğı işlərində daha çox iştirak edən ataların həyat yoldaşları da münasibətlərində daha çox məmnuniyyət və daha güclü dəstək hiss etdiklərini bildiriblər.[22]

---

[19] https://www.unwomen.org/en/news-stories/feature-story/2023/05/gender-equality-starts-at-home-five-ways-to-drive-change-within-the-family

[20] Papa schools manual. EU. UNFPA. UNWomen 2020.

[21] Eyni mənbə.

[22] Eyni mənbə.

# BÖLMƏ 2

## Selektiv abortlar və ya gender əsaslı cins seçimi

Ölkəmizdə ən geniş yayılmış cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarından biri də selektiv abortlardır. Bu uşağın cinsinə görə qadının hamiləliyini süni şəkildə dayandırmağa məcbur edilməsidir. Bəzən də qadın yalnız qız uşaqları dünyaya gətirdiyi üçün tərk edilir.

Bioloji normaya uyğun olaraq doğulan uşaqların cins nisbəti (hər 100 qız uşağına düşən oğlan uşaqlarının sayı) 102-106 təşkil edir.[23] Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsi[24] üzrə Komitənin 2022-ci il məlumatına əsasən 2022-ci il üzrə doğumu qeydə alınmış 122846 nəfərdən 64940-ı oğlan, 57906- sı isə qızdır. Cinslər arasındakı fərq 7034 nəfərdir. Cins nisbəti hər 100 qıza 112 oğlan təşkil edir. Göründüyü kimi, Azərbaycanda diri doğulan uşaqların cins nisbətində oğlanlar üstünlük təşkil edir və bu üstünlük hələ 1990-cı illərin əvvəllərindən müşahidə olunmaqdadır.

Əgər doğum zamanı cins nisbəti təbii həddən yüksəkdirsə, bu selektiv abortların baş verməsi deməkdir. Beləliklə, gender əsaslı cins seçimi cinsi ayrı-seçkiliyin görünən formalarındandır.

---

[23] MELUMAT_06-10-2023 TM.indd (scfwca.gov.az)
[24] Eyni mənbə.

**Oğlanların xeyrinə cinsi seçim qadınlara qarşı geniş yayılmış sosial, mədəni, siyasi və iqtisadi ədalətsizliklərin əlamətidir və qadınların insan hüquqlarının açıq şəkildə pozulmasıdır**

**(Gender əsaslı cinsi seçimin qarşısının alınması. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, BMT Əhali Fondu,BMT-nin Uşaq Fondu, BMT-nin Qadınlar üzrə Agentliyi və ÜST-ün idarələrarası bəyanatı. 2011)**

Gender əsaslı cins seçimini tətikləyən amillərə isə cəmiyyətdə dərin kök salmış gender stereotipləri, oğlan uşaqlarına yüksək dəyər verilməsinə töhfə verən ənənəvi təcrübələr daxildir. Oğlan uşaqları qızlarla müqayisədə sosial və iqtisadi cəhətdən daha dəyərli hesab olunur[25], onlara nəslin və soyadın davamçısı, qız övladlarına isə "köçəri quş" kimi baxılır."[26] Qız uşaqlarının yük hesab edilməsi, ailə quracaqları vaxtdan etibarən artıq doğulduqları ailələrinə aid olmayacaqları üçün əlavə öhdəlik hesab olunmasında, oğlan uşaqlarına üstünlük verilir.[27]

---

[25] Azərbaycan ölkə icmali. Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi. BMT Əhali Fondu. Avropa İttifaqı. Bakı 2018.
[26] Azərbaycan Respublikasinin milli qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat. BMT Əhali Fondu. Avropa İttifaqı. Bakı 2020.
[27] Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat. BMT Əhali Fondu. AQUPDK. Promundo. Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz. 2018.

Cins nisbətinin pozulmasına gətirib çıxaran digər amillərdən biri də kontraspetiv üsullardan istifadənin aşağı səviyyədə olmasıdır. Belə ki, kontraseptiv üsullardan istifadənin aşağı olması arzuolunmaz hamiləliklərin və doğuma nəzarət üsulu kimi süni abortların sayının çoxalması ilə nəticələnə bilər.

## Gender əsaslı cins seçiminin fəsadları

Cəmiyyətdə dərin oturuşmuş stereotipli baxışlar səbəbindən qadınlar oğlan uşağı olana qədər uşaq dünyaya gətirməyi davam edirlər, bu isə, qadının həyatı və sağlamlığı üçün təhlükə yarada bilər. Bu, qadınların sağlamlığına və həyatına təsir etməklə yanaşı, həm də qadınları elə bir vəziyyətə salır ki, oğlanlara üstünlük verməklə qızların aşağı statusunu davam etdirməli olurlar. Bundan əlavə, arzuolunmaz bir qız uşağı dünyaya gətirməyin nəticələrinə qatlanmalı olanlar da qadınlardır. Belə ki, qız uşağını dünyaya gətirən qadın zorakılığa məruz qala, tərk edilə, boşana bilər.

Gender əsaslı cins seçimi demoqrafik balansın pozulmasına səbəb olmaqla arzuolunmaz nəticələrə gətirib çıxarır. “Ailədə əsasən kişinin, qayınana və qayınatanın istəyinə görə oğlan uşaqlarının ana bətnində saxlanılması, qız uşaqlarının isə məhv edilməsi cəmiyyətdə gender balansının, eləcə də genofondun pozulmasına gətirib çıxara bilər.”[28]

[28] Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. AQUPDK. Hacettepe Universiteti. BMT Əhali Fondu. 2014

**“Bu fenomenlə bağlı aparılmış ən son araşdırmalar zamanı əldə edilmiş məlumatlar göstərir ki, bu vəziyyət gələcəkdə əhalinin ümumi strukturu və dinamikası baxımından çox xoşagəlməz nəticələrə gətirib çıxara bilər. Bu problemin illərlə davam etdiyi Hindistan və Çinin təcrübəsi göstərir ki, kişilərin sayının həddən artıq çoxalması onların ailə qurmaq üçün partnyor tapa bilməməsi ilə nəticələnir və bu da öz növbəsində cinayətkarlıq statistikasının ikiqat artması, zorakı davranış hallarının geniş yayılması, gəlin qaçırma, insan alveri, zorlama və fahişəlik kimi bir sıra mənfi hallarla sıx şəkildə əlaqəlidir.”**

(Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. 2014)

Otuz ildən çox müddət ərzində cinsə görə seçilən abort Azərbaycanda demoqrafik bölgüyə təsir göstərmişdir, o dərəcədə ki, qadınlar kişilərdən orta hesabla 30 yaşdan aşağı əhalinin daha azını təşkil edir. Məşğul olan qadınların sayında davamlı artım müşahidə olunsa da, işsiz olan əmək qabiliyyətli əhalinin kişilərdən daha çox qadın olması ilə beş il ərzində işçi qüvvəsində gender fərqi yalnız cüzi dərəcədə azalmışdır. 12 həftədən sonra abortların sayı da ümumi abortların sayı ilə müqayisədə daha sürətli artıb.[29]

[29] Fuad Karimli. Sex-selective Abortion in Azerbaijan: Exploring Institutional Dynamics and Responses. Center for Economic and Social Development. 2022.

“Demoqrafik proqnozlar, 2014-2050- ci illər üzrə Azərbaycanda doğulanların cins nisbətinin müxtəlif ssenariləri”[30] tədqiqatında qeyd olunur ki, doğulanlar arasında cins nisbəti artdıqca, reproduktiv yaş qrupunda olan qadınların sayında azalma baş verir. Tədqiqatda o da qeyd olunur ki, doğulanlar arasında cins nisbətinin pozulması gələcəkdə nikah partnyorlarının çatışmazlığına səbəb olmaqla nikah bazarında problemlər yaradır. Cins nisbətinin oğlanların xeyrinə davam edəcəyi halında “ölkədə demoqrafik vəziyyət maskulinizasiya adlanan mərhələyə çatacaq və bu halda gender balansını sonradan bərpa etmək xeyli çətinləşəcək.”[31] Belə ki, demoqrafik proqnozlarla bağlı adı çəkilən araşdırmada o da qeyd edilir ki, Azərbaycanda doğulanların cins nisbətinin pozulması tendensiyası keçmişdə başladığından əhalinin sayına və strukturuna təsiri hələ uzun müddət olacaqdır və hətta ən optimist proqnozda belə əhalinin cins nisbətində balansı əsrin ortalarına qədər mümkün olmaya bilər.

[30] Demoqrafik proqnozlar 2014-2050, Azərbaycanda doğulanların cins nisbətinin müxtəlif ssenariləri. Hacettepe Universiteti. BMT Əhali Fondu. 2015.
[31] Azərbaycan Respublikasinin milli qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat. BMT Əhali Fondu. Avropa İttifaqı. Bakı 2020.

# BÖLMƏ 3

## Uşaq nikahları

**Uşaq nikahı** 18 yaşdan aşağı uşaq və yetkin insan arasında və ya 18 yaşdan aşağı uşaq və digər uşaq arasında bağlanan rəsmi nigah və ya qeyri-rəsmi birgə ittifaqdır.

**Uşaq evlilikləri gender bərabərsizliyinin təzahürüdür**. Uşaq evliliklərinin altında dərin kök salmış patriarxal inanclar, qızlara ailədə oğlan uşaqlarına nisbətdə aşağı dəyərin verilməsi, qadını idarə etmək, qızların cinsəlliyi kimi məsələlər dayanır.

Qız uşaqlarının erkən evliliyə məcbur edilməsi halları onlara qarşı cinsi mənsubiyyətə görə ayrı-seçkilik halı kimi qiymətləndirilir. Bu problemlər qadınların və qızların cəmiyyətdə öz hüquqlarını reallaşdırmasına ciddi əngəl yaradır və onları sosial cəhətdən həssas qrupa çevirir.

**Uşaq nikahları qızların uşaqlığını əllərindən alır və qızların həyatını, rifahını və gələcəyini təhlükə altına alır. Uşaq nikahları çox vaxt kök salmış gender bərabərsizliyinin nəticəsidir ki, bu da qızlara qeyri-mütənasib təsir edir.**

Sosial normalar və gözləntilər qızlardan həyat yoldaşı və ana olmağı gözləyir. Az təminatlı və təhsil imkanlarının məhdud olduğu icmalarda alternativlərin mümkünlüyü (yəni həyat yoldaşı və ana olmaqdan başqa) daha məhdud görünür. Hətta imkanlar mövcud olarsa belə, oğlanlara qızlardan daha çox dəyər verən və sərt (möhkəm) gender rollarını dəstəkləyən sosial normalar valideynlərin qızlarının təhsilinə investisiya etməyə dəymədiyi düşüncəsində olmasını təlqin edir. Ənənələrə əməl etməməklə bağlı sosial stiqma bu təcrübənin (uşaq evliliyinin) davam etməsini təmin edir.

18 yaşından əvvəl ailə quran qızların məişət zorakılığına daha çox məruz qalması və məktəbdən qalma ehtimalı daha çoxdur. Onların evlənməmiş həmyaşıdlarından daha pis iqtisadi və sağlamlıq göstəriciləri olur və nəticədə bu, onların övladlarına ötürülür və ölkənin keyfiyyətli səhiyyə və təhsil xidmətləri göstərmək imkanlarını çətinləşdirir.

Uşaq gəlinlər adətən yeniyetməlik dövründə, hamiləlik və doğuş zamanı fəsadların yaranma riski artdıqda hamilə qalırlar. Bu öz növbəsində həm də qızları ailə və dostlarından təcrid edə bilər, onların psixi sağlamlığına böyük zərbə vurur.

**Uşaq nikahları insan hüquqlarının pozulmasıdır**

18 yaşına çatmamış nikah insan hüquqlarının əsaslı şəkildə pozulmasıdır. Yoxsulluq, nikahın "müdafiə" təmin edəcəyinə dair təsəvvür, ailə şərəfi, sosial normalar, bu praktikanı qəbul edən adət və ya dini qanunlar, qeyri-adekvat qanunvericilik bazası və ölkənin vəziyyəti, vətəndaşlıq qeydiyyatı sistemi də daxil olmaqla, bir çox amillər qarşılıqlı təsir göstərərək uşağı evlilik riski altında qoyur. Bu hal qızlar arasında oğlanlara nisbətən daha çox görülsə də, bu, cinsindən asılı olmayaraq hüquqların pozulmasıdır.

Qeyd olunduğu kimi, uşaq nikahları çox vaxt erkən hamiləlik və sosial təcrid ilə nəticələnərək, qızın məktəbdə təhsilini yarımçıq qoyaraq, karyera və peşə inkişafı imkanlarını məhdudlaşdıraraq və onu məişət zorakılığı riski ilə üz-üzə qoyaraq qızın inkişafına təhlükə yaradır. Baxmayaraq ki, uşaq nikahlarının uşaq bəylərə təsiri geniş şəkildə tədqiq edilməmişdir, evlilik eyni şəkildə oğlanları hazırlıqsız olduqları yetkin rola qoya bilər və onlara iqtisadi təzyiqlər göstərə və gələcək təhsil və ya karyera yüksəlişi imkanlarını məhdudlaşdıra bilər.

Birgə yaşayış – cütlük "birlikdə, sanki evli kimi" yaşadıqda – nikahda olduğu kimi insan hüquqları ilə bağlı eyni məsələləri doğurur. Cütlük birlikdə yaşadıqda, hətta biri və ya hər ikisi hələ 18 yaşına çatmamış olsa belə, onların yetkin olması ehtimal edilir. Münasibətlərin qeyri-rəsmi olması ilə bağlı əlavə narahatlıqlar – məsələn, miras, vətəndaşlıq və sosial tanınma baxımından – qeyri-rəsmi ittifaqda olan uşaqları rəsmi nikahda olanlardan fərqli yönlərdə daha həssas edə bilər.

Beynəlxalq İnsan Hüquqları Bəyannaməsində "azad və tam" nikah hüququ tanınır və bəyan edilir ki, tərəflərdən biri həyat yoldaşı ilə bağlı məlumatlı qərarı vermək üçün kifayət qədər yetkin olmadıqda razılıq "azad və tam" olmur.

Uşaq Hüquqları Konvensiyasında uşaq nikahları digər hüquqlarla əlaqələndirilir – ifadə azadlığı, hər cür zorakılıq və istismardan qorunmaq hüququ, zərərli adət-ənənələrdən/təcrübələrdən qorunmaq hüququ.

### Oğlan uşaq evliliyi

Uşaq ikən evlənən oğlanlar və qızlar bioloji və sosial fərqlərə görə eyni riskə və nəticələrə məruz qalmırlar. Buna baxmayaraq bu təcrübə hər iki cinsin uşaq hüquqlarının pozulmasıdır. Eyniliklə uşaq gəlinlər kimi, uşaq bəylər də hazır olmadıqları yetkin məsuliyyətlər götürməyə məcbur edilirlər. Bu ittifaq erkən atalıq və evi təmin etmək üçün əlavə iqtisadi təzyiq yaradır. Bu da öz növbəsində oğlanın da təhsil və karyera inkişafı üçün imkanlarını məhdudlaşdıra bilər.

## Uşaq evliliklərinin fəsadları

Erkən hamiləlik bu zərərli təcrübənin ən təhlükəli səbəb və nəticələrindən biridir. Erkən ərə gedən qızlar qeyri-bərabər güc münasibətlərinə görə zorakılığa və məcburi cinsi əlaqəyə daha çox məruz qalırlar. Onlar cinsi yolla ötürülən infeksiyalara (HİV daxil olmaqla) daha həssasdırlar.

Məktəbə getmək qızlara həyatda seçim və imkanlar verir, onlara öz icmalarında fəal rol oynamağa və yoxsulluq dövranını qırmağa imkan verir. Qeyd olunduğu kimi, ailə quran qızların məktəbə getmə ehtimalı azdır. Təhsil, o cümlədən hərtərəfli cinsi təhsil, qızların cinsi sağlamlığı və rifahı ilə bağlı məlumatlı qərarlar qəbul edə bilməsi üçün vacibdir.

- *Uşaq evlilikləri qızları zorakılığa qarşı daha həssas (daha çox məruz qalma ehtimalı) edir*

Uşaq ikən ailə quran qızlar çox vaxt yaşlı kişilərlə evlənirlər ki, bu da münasibətlərdə güc balanssızlığını gücləndirir. Məişət zorakılığı nikaha daxil olmaq üçün məlumatlı razılıq verən qadınlara nisbətən uşaq ikən nikaha girən qızlar arasında daha çox yayılmış və daha şiddətlidir.

Bir çox qızlar üçün uşaq evliliyi onları ömürləri boyu təcavüzə və zorakılığa məruz qoyur. Onların dostlarından və ailəsindən təcrid olunduğu üçün, dəstək almaq və ya yaşadıqlarını bölüşmək üçün məhdud imkanları var.

- *Sağlamlıqlarını və həyatlarını riskə atır*

Məhdud təhsil və qərar vermə səlahiyyətləri olduqlarına görə qızlar təhlükəsiz cinsi əlaqə və ailə planlaması ilə bağlı qərarlara təsir etmək iqtidarında deyillər ki, bu da onları HİV, o cümlədən cinsi yolla ötürülən xəstəliklər və bədənləri hazır olmadan doğuş riski altında qoyur. Bundan başqa, qızlar yaşadıqları icmada qız uşağı kimi üzləşdikləri hərəkətlilik məhdudiyyətləri, cinsi və reproduktiv sağlamlıq və hüquqlar haqqında məlumatlara çıxışın olmaması, həmçinin uşaq dünyaya gətirmək üçün kifayət qədər bioloji yetkin olmamaları səbəbindən doğuşa fiziki cəhətdən hazır deyillər. Erkən doğuş qızların həyatını riskə ata və ölü doğum, uşaq ölümü ilə nəticələnə bilər.

# Qanun və cəza

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 2-ci Maddəsinin 2.3 bəndində qeyd edilir "nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır."

Ailə Məcəlləsinin 3- cü Maddəsinin 3.2 bəndində də "ailə münasibətlərinin qadın və kişinin könüllü nikah ittifaqı, bütün ailə üzvlərinin maddi mülahizələrdən azad olan qarşılıqlı məhəbbəti, dostluğu və hörmət hissləri əsasında qurulması" və 10-cu maddədə nikah yaşının 18 olması qeyd olunur.

Maddə 10. **Nikahın yaşı**

10.1. Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin **Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər fəslində (22-ci fəsil) qeyd olunur ki**, azyaşlının nikaha daxil olmağa məcbur edən şəxslər cinayət məsuliyyətinə cəlb olunurlar (176.1.2).

Maddə 176-1. **Qadını nikaha daxil olmağa məcbur etmə**

176-1.1. Qadını nikaha daxil olmağa məcbur etmə -iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**176-1.2. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə -üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.**

# BÖLMƏ 4

## Gender əsaslı zorakılıq/Məişət zorakılığı

“Gender əsaslı zorakılıq”, “qadınlara qarşı zorakılıq”, məişət zorakılığı çox zaman eyni mənada işlənsə də bu anlayışların fərqli adlarla təqdim olunmasında məqsəd qadınlara qarşı zorakılığın müxtəlif aspektlərinə diqqəti çəkmək və onları vurğulamaqdır.[32]

Gender Əsaslı Zorakılıq (GƏZ) və qadınlara qarşı zorakılıq terminləri tez-tez bir-birini əvəz edən mənada istifadə olunur, çünki qadınlara qarşı zorakılığın əksəriyyəti gender əsaslıdır və ən çox GƏZ kişilər tərəfindən qadınlara və qızlara tətbiq edilir.

***Qadınlara qarşı gender əsaslı zorakılıq (GƏZ) insan hüquqlarının pozulmasıdır, həm də kişilər və qadınlar arasında qeyri-bərabər güc münasibətlərinin səbəbi və nəticəsidir.***

[32] Akın A, Türkçelik E, Əliyeva S. Azərbaycan Respublikasında Qadınlara qarşı Zorakılıqla Mübarizə üzrə Təlim Vəsaiti. Dəstək Mərkəzlərinin əməkdaşları üçün məlumat kitabçası. BMT Əhali Fondu. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. ABŞ Beynəlxalq İnkişaf Agentliyi.

**Qadınlara qarşı zorakılıq "kişilər və qadınlar arasında tarixən qeyri-bərabər güc münasibətlərinin təzahürüdür ki, bu da kişilər tərəfindən qadınlar üzərində dominantlıq və ayrı-seçkiliyə gətirib çıxarır və qadınların tam tərəqqisinin qarşısını alır.[1]**

**Qadınlara qarşı zorakılıq qadınları kişilərlə müqayisədə tabeçiliyə məcbur edən mühüm sosial mexanizmlərdən biridir" (DEVAW- Qadınlara qarşı Zorakılığın Aradan Qaldırılması üzrə Bəyannamə, preambula)[1] ... insan hüquqlarının pozulması və qadınlara qarşı ayrı-seçkiliyin bir formasıdır.**

**Bu, qadınlara fiziki, cinsi, psixoloji və ya iqtisadi zərər və ya iztirablarla nəticələnən və ya nəticələnəcək bütün gender əsaslı zorakılıq aktları, o cümlədən ictimai və ya şəxsi həyatda bu cür hərəkətlərlə hədələmə, məcburiyyət və ya özbaşına azadlıqdan məhrum etmədir" (Maddə 1 DEVAW).**

Bu izahdan aydın olur ki, qadınlara qarşı zorakılıq cəmiyyətdə qadınlar və kişilər arasında güc/səlahiyyət münasibətlərində uzun müddət davam edən bərabərsizlikdir və ənənəvi sosial güc strukturları fonunda qadınlara qarşı fərdi səviyyədə güc və nəzarət əldə etmək cəhdi kimi qəbul edilməlidir. Həyatın bütün sahələrində qadınlara qarşı gender əsaslı zorakılıq

olsa da, zorakılığın əksəriyyəti ailə daxilində və yaxın sosial mühitdə törədilir.[33]

Gender diskriminasiyası + Səlahiyyətdən sui-istifadə + Insan hüquqlarına hörmət edilməməsi = GƏZ

***Evdə qadınların məruz qaldığı zorakılığa istinad etmək üçün istifadə olunan terminlərdən biri məişət zorakılığıdır.***[34]



